AZƏRBAYCAN ORDUSU

# Hərbi hissədə tədbir keçirildi

***"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi ilə Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsində Beynəlxalq Əlillər Gününə həsr olunmuş tədbir keçirildi.***



Hərbi hissənin komandiri tədbir iştirakçılarını salamladı, qonaqların gəlişinin məqsədini açıqladı. "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri Tahir Xudiyev çıxışında bildirdi ki, 3 Dekabr BMT tərəfindən elan olunmuş Beynəlxalq Əlilliyi olan insanların günüdür. Bu gün bayram etmək üçün deyil, bütün dünya ictimaiyyətinin diqqətini əlilliyi olan şəxslərin problemlərinin həllinə və hüquqlarının müdafiəsinə cəlb etmək məqsədi daşıyır. O, ictimai birliyin bu gün münasibəti ilə əvvəllər müxtəlif yerlərdə tədbirlər keçirdiyini, bu il isə hərbi hissədə əsgərlərimiz qarşısında ictimai birliyin Mədəniyyət şöbəsinin üzvlərinin iştirakı ilə konsert proqramı ilə çıxış etməklə öz töhfələrini vermək istədiklərini söylədi.

Tahir Xudiyev onu da qeyd etdi ki, ictimai birliyin vaxtı ilə Azərbaycan Ordusunda və hüquq-mühafizə orqanlarında hərbi təlim görmüş 50-yə yaxın üzvlərinin aprel döyüşlərində Müdafiə Nazirliyinə etdikləri müraciət bu gün də qüvvədədir. Belə ki, sağlamlıq imkanlarının məhdud olmasına baxmayaraq onlar, lazım gələrsə Vətənin müdafiəsində Ali Baş Komandanın əmr və göstərişlərini hər an yerinə yetirməyə hazırdırlar.

Sonra Müdafiə Nazirliyinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Şəmədova çıxış edərək bildirdi ki, əlilliyi olan insanlar arasında Qarabağ müharibəsində sağlamlığını itirərək əlil olan insanlar da var. Onlar daima dövlət qayğısı ilə əhatə olunublar. Bu gün bu tədbirdə iştirak edən "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin üzvləri arasında Qarabağ müharibəsi əlilləri və veteranları da var.

İstefada olan polkovnik Elşad Şabanov hərbi vətənpərvərlik mövzusunda çıxış etdi. Zabit və əsgərlərin daha böyük inamla xidmət etdiyinə əminliyini bildirdi. Qələbə əzmi ilə vətənpərvərlik ruhlu şeir söylədi.

Elşad Şabanov əsgərlərə hərbi elmlərə dərindən yiyələnməyi, Vətəni bundan sonra da göz bəbəyi kimi qorumağı tövsiyə edərək qeyd etdi ki, danışıqlar baş tutmazsa, yaşımıza baxmayaraq biz veteranlar da Vətən uğrunda qəti və müqəddəs döyüşlərə hazırıq.




"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin əməkdaşı, Qarabağ müharibəsi və Silahlı Qüvvələr veteranı, tibb xidməti polkovniki İlham Sadıqov hərbi hissənin şəxsi heyətini salamladı, onlara hərbi xidmətlərində uğurlar arzuladı.

Müdafiə Nazirliyi, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi və hərbi hissənin şəxsi heyətinin iştirakı ilə keçirilən tədbir konsert proqramı ilə davam etdi.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin dəvəti ilə tədbirə qatılan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələri - Nurlana Kərimli, Əmrah Məcdunov, Rəvanə Vəliyeva, Anar Əhmədov, Şəmşəd Məmmədov, musiqiçilər - Vüsal Qasımov, Kamal Abdullayev, Seymur Abdullayevin ifasında səslənən şən mahnılar da əsgərlərimizdə ruh yüksəkliyi yaratdı.

Azərbaycan və dünya ədəbiyyatına, mədəniyyətinə, tarixinə aid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə çap olunmuş 200 ədəd kitab, 170 ədəd "Vətəndaş Cəmiyyəti" jurnalı hərbi hissənin kitabxanasına hədiyyə edildi.

Hərbi hissədə vətənpərvərlik ruhunda keçirilən tədbirin yüksək səviyyədə təşkilinə görə "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyin sədri Tahir Xudiyev fəxri fərmanla təltif olundu.

**Məlahət ABDULLAYEVA**